# QASIRĞALAR İÇİNDƏ

Müharibə savaşlardan ibaətdir. Ordular üz-üzə gəlir. Əqidələr savaşa qalxır. Birmənalı olaraq tərəflər öz prinsipləri, öz ölçüləri ilə hər biri özünü haqlı hesab edir. Ancaq bir həqiqət var ki, tərəflərdən biri haqsızdır, digəri haqlıdır. Haqlı olan tərəf ədalətli müharibə aparır. Yəni öz haqqını, hüququnu, başqa sözlə Vətənini qoruyur, öz torpağı uğrunda vuruşur. Çoxlarına elə gələ bilər ki, İkinci Cahan savaşı bizdən çox uzaqda qalıb, bir növ nağıla, əfsanəyə çevrilib. Bu zaman yaxşı olar ki, hər kəs günümüzün şahidi olduğumuz Qarabağ müharibəsini yada salsın. Ermənilər dünyaya car çəkib özlərinin haqlı olduqlarını deyir. Yazıq, köməyə möhtac insanlar kimi təqdim edirlər. Amma tarixi həqiqət budur ki, onlar Azərbaycan torpaqlarını işğal etmişdilər və az qala 30 ildir ki, Qarabağı öz caynaqlarında saxlayır, torpaqlarımızı sonsuz bir ədalətsizliklə özlərininki hesab edir, hər cür vəhşiliyə rəvac verirdilər. Onlar üçün heç bir mənəvi meyar yoxdur. Ona görə də hər cür sülh danışıqlarının boşa çıxdığını görən Ali Baş Komandanımız öz qətiyyətini göstərdi.

Bu günkü müasir erməni faşistlərinin istinadı olan Alman faşizmi necə məğlubiyyətə uğradısa, eləcə də, onlar kapitulyasiya aktına imza atdılar.

Bütün bunlar tarixdir. Fikirləşəndə ki, varislik qırılsaydı, Azərbaycan oğullarının İkinci Cahan savaşındakı igidlikləri yaddan çıxsaydı onda yeni nəsil də gücsüz olardı. Şəddat Cəfərov kimi müəlliflərin sayəsində Azərbaycan oğullarının igidliyi salnaməyə yazılır. Və bu yazılar həqiqi tarix kimi yeni nəslin yaddaşına ötürülür.

Şəddat Cəfərov Azərbaycan oxucusuna "Müharibənin alovlu qasırğası içindən" oçerkini təqdim etməklə özünün ziyalılıq borcunu yerinə yetirmiş olur. Və biz bununla qəhrəman Mirzəcan Məmmədov kimi Azərbaycan oğlunun qəhrəmanlığını əslində bir örnək olaraq yaddaşa yazır. Hər bir oxucu əsərin ayrı-ayrı parçaları ilə rastlaşarkən daha əvvəl qeyd etdiyimiz kimi sanki odlu müharibənin içərisinə düşür. Özünü ədalətli müharibənin döyüşçüsü kimi təsəvvür edir: "Əsgərlərin qarşısını alan, ölüm atəşi saçan bu pulemyot yuvasını mütləq məhv etmək lazım idi. Əsgərlər qəflətən iki nəfərin ilanvari hərəkətlərlə bu binaya yaxınlaşdıqlarını gördülər. Onlardan biri - hündürboy döyüşçünün kürəyində ağır məftil çarxı vardı, yanındakı tibb işçisi leytenantının çiynindən sanitar çantası asılmışdı, başında isə tünd parıltı verən kaska var idi. Onlar partlayışdan yerə əyilmiş işıq dirəyinin yanında yerə çökdülər. Döyüşçü cəld telefon şunurunu bərkidib başı ilə yerə uzanmış zabitə işarə etdi və dovşan kimi o yan-bu yana sıçrayaraq küçənin o biri tərəfinə qaçdı. O, məhz hitlerçilərin səylə atəşə tutduqları yerə qaçırdı.Pulemyot ara verməndən titrəyib hürürdü. Güllələr daşları parçalayıb fontan yaradır, bu daş qırıntıları da səs-küylə küçəyə səpələnirdi. Əsgər heç beş addım da getməyib yıxıldı, o, əvvəl dizi üstə yerə çökdü, sonra əllərini sinəsinə sıxaraq küçədəki daşların üstünə sərilib hərəkətsiz halda dondu. Ağır məftil çarxı əsgərin kürəyindən düşüb cingildədi.Binadan bir azca aralıda mərmi partladı və göyə saysız-hesabsız qəlpələr sıçradı. Bu boz daş parçaları çarxın üstünə düşüb onu baraban tək döyəclədi. Elə bu anda bu döyüş səhnəsini izləyən sanitar taqımının komandiri Məmmədovun qulağına inilti səsi gəldi: əsgər sağ idi.-Döyüşçülər onun kərtənkələ kimi necə cəld hərəkətlə nə vaxt həmin binaya tərəf süründüyünü görmədilər. Orada, divarın dibində tibb leytenantı çox kiçik və cılız görünürdü". Yazıçı səriştəsi ilə qələmə alınmış təsvirlər nə qədər yerli yerindədir. Oda, alova bürünmüş torpaq sanki tüstü ilə nəfəs alır. Belə odun alovun içində özünü itirməyən, düşmənə qarşı müqaviməti sarsılmayan oğulların nəyə qadir olduğunu görmək, duymaq nə qədər qürurludur. Mirzəcan Məmmədovun gözünü qırpmadan ölümün gözünün içinə dik baxaraq çarpışmalardan keçməsi sözün həqiqi mənasında insan iradəsinin nəyə qadir olduğunu göstərən ən yaxşı örnəkdir.

Şəddat Cəfərov təsadüfi olaraq bu oçerki seçməyib. Çünki o əslində qəhrəmanı seçib. Qəhrəmanın kimliyini, onun hansı mənəvi istinadlara malik olduğunu göstərmək istəyib. Azərbaycan əsgərinin yenilməzliyini təsdiq edib. Və buna kifayət qədər nail ola bilib. Biz bədii təsvirlərin şirin Azərbaycan diliylə qəhrəman Mirzəcan Məmmədovu vəsf etməsini dilin şərbəti kimi varlığımıza çəkirik: "Günəş qatı duman arasından ani olaraq görünüb pəncərələrin şüşələrini qızıl rənglə işıqlandırırdı və bir anlıq, yalnız bircə an Məmmədov həqiqəti unutdu: yaxınlıqdakı qızğın döyüşü, həlak olan insanları unutdu, şəhər isə əhalisi ilə birgə azadlıq gözləyirdi: Mirzəcan bu günəş şüalarını görüb həyatın davam etdiyini anladı...Külək yenidən insan naləsini ətrafa yaydı. Yaralı tərpəndi. Məmmədovun ürəyindən bir soyuqluq keçdi: o qorxdu, ona elə gəldi ki, faşistlər də bunu gördü və indi bu yaralı əsgər nişangaha çevriləcək, ona atəş qatarı açılacaq və hər şey məhv olacaq. Döyüşçülər bu iki nəfər hərbçini müşayiət edərək Məmmədovun da onlar kimi həyəcan keçirdiyini düşünürdülər. Mirzəcanın bədəni donmuşdu. O, gözlərini qırpmadan yaralının uzandığı tərəfə baxırdı". Hər abzasda, hər cümlədə biz yazıçı nəfəsi ilə canlanan, zəmanəmizə gələn qəhrəmanı görürük, onunla birgə addımlayırıq. Gözlərimizin önündə azərbaycanlı əsgərin fədakarlığını, qarlı çöllərdəki güllə və soyuq, alov və şaxta arasında çarpışan əsgəri tanımaqla xalqımızın yenilməz ruhunu hiss edirik. Mirzəcan Məmmədov təkcə öz canının hayında deyil. O, hər bir yaralı əsgərin axan qanını özününkü bilir. Daha onun üçün fərqi yoxdu ki, bu əsgər milliyyətcə hansı xalqa mənsubdur. Ancaq bir fərqi var. Bu da ondan ibarətdir ki, gözünün qarşısında qanı axan yaralı əsgər Vətən uğrunda vuruşur. Onun vuruşu haqlıdır, ədalətlidir. Buna görə də onu müəlliflər nə qədər sevgi ilə təsvir edirsə, oxucu da daha artıq təsürat və hiss ilə varlığına qəbul edir: "Qatı tüstü topaları şəhər üzərinə qalxıb ağır bulud tək evlərin üstündən asılırdı. Birdən tibb leytenantı binanın ağ divarından aralanıb yerə əyilə-əyilə yaralıya tərəf qaçdı. O dəqiqə də bizimkilər tərəfdən düşmənə atəş açıldı. Güllələr qarşısına çıxan hər şeyi vurub-dağıdırdı: şüşələr cingildəyir, pəncərə karnizlərinin malaları parça-parça olub yerə tökülürdü. Sanitar taqımının komandiri yaralıya çatıb dizi üstə qarşısında oturdu, onun əlini boynuna saldı və ağırlıq altında aramla küçədən keçib təhlükəsiz yer axtardı. Yenə də ətrafa daş yağışı səpələnməyə başladı. Salamat qalmış pulemyotdan Məmmədov tərəf atəşə tutuldu. Döyüşçülərimiz bütün silahları ilə düşmənin pulemyotuna zərbə endirib onun sahibini susdurdular və Mirzəcana təhlükəsiz yerdə gizlənib yaralıya yardım göstərməsi üçün şərait yaratdılar. Əsgər sağ qaldı, Məmmədovun gözləri sevincdən parıldayırdı. O, xoşbəxt bir gülüşlə gülümsəyib qələbəsinə sevinirdi. Yaralını tibb sanitar batalyonuna çatdırdılar. Müalicə alandan sonra o yenə də döyüşə atıldı". Hər bir yaralı əsgərin sağalıb yenidən döyüşə qayıtması təkcə orqanizmin fiziki qələbəsi deyil, həm də bu yüksək mənəvi qələbədir. Mirzəcan Məmmədovun tale yolu beləcə vərəqlənir, yazıya köçürülür. Və Azərbaycanın hərb tarixinin bir səhifəsi olur. Gələcək nəsillər onun igidliyi ilə fəxr edir, qürurlanır və onu unutmurlar. Bu gün Qarabağ cəbhəsində qalib gələn hər bir əsgərin şücaətində Şəddat Cəfərovun sevgi ilə tərənnüm etdiyi Mirzəcan Məmmədovun da payı var. Zaman keçdikcə belə qəhrəmanların sayəsində biz tarixdən ayrıla bilmirik, tarixə qayıdırq, tarixlə qovuşuruq.



Müharibənin böyük döyüşü artıq geridə qalmışdı. Ş.Cəfərov A.Qritçenkonun yazısını Azərbaycan oxucusuna çatdırarkən böyük müharibə ərazisinin təfərrüatlarına da diqqət yetirir. Biz azərbaycanlı əsgərin avropa ölkələrindən keçərək ilanın öz yuvasında başını əzməkçün necə əzmlə irəlilədiyini müşahidə edirik. Azərbaycan əsgəri böyük Sovet Ordusunun tərkibində öz nüfuzunu, yerini öz əzmi ilə göstərə bilir: "1944-cü ilin ikinci yarısında Sovet Ordusu faşistləri Rumınyadan, Bolqarıstandan, Polşadan qovub, Yuqoslaviya, Çexoslovakiya, Macarıstan torpaqlarına ayaq basdı...Mirzəcan Məmmədovun xidmət etdiyi divizya Şərqi Prussiya sərhədlərinin lap yaxınlığında idi. O, öz sanitar taqımı ilə alman torpaqlarına ilk daxil olanlardan biri oldu. Almaniyanın da meşələri, çölləri, çayları, ağacları Litvada, Latviyada, Estoniyada, Belorusiyada olduğu kimi idi. Həm orada, həm də burada eynilə ağcaqayın da qızarırdı, çayın suyu da eynilə parıldayıb axırdı. Yamyaşıl otlaq haradasa gözəgörünməz yerdə ikiyə bölünürdü. Heç yerdə sərhəd dirəkləri, işarələri görünmürdü, onları almanlar özləri çıxartmışdılar. Ordularımız dayanmadan nifrət etdikləri bu torpağı atəşə tuturdular. Axı 1941-ci ildə faşistlər məhz buradan Sovet İttifaqına hücuma keçmişdilər". Müəlliflər bir məqamı xüsusilə diqqətdə saxlayırlar. Əsgər gərək qəddar düşmənə nifrətini əsirgəməsin bu elə hissdir ki, düşmənin qəddarlığına qarşı ən yaxşı cavabdır və ədalətli hissdir. Görünür elə bu səbəbdən də əsgərlərin əzmini göstərərkən Ş.Cəfərov və A.Qritçenko əsgərlərin düşmənə nifrət hissini kifayət qədər qabarıq verməyə çalışırlar. Vətəni azad edən əsgərin düşmən üzərindəki üstünlüyü məhz onun nifrət hissi ilə tənzimlənir.

Ş.Cəfərovun əsgərlərin mənəvi mühitini təsvir edərkən fərqli bir münasibəti də var. O, əsgərlərimizi vəhşi, quldur kimi təsvir etmir. Haqq və ədalət savaşçısı kimi təsvir edir. Onların irəliləmək üçün necə həvəslə can atdıqlarını göstərir: "Artilleriyanın top hazırlığı başladı və almanlar tərəfdən kötüklər, beton qırıqları, kökündən çıxmış ağaclar, maşın, top təkərləri ətrafa səpələnməyə başladı. Əsgərlər tez-tez başlarını səngərdən çıxarıb "İrəli" əmrini səbirsizliklə gözləyirdilər: -Hə, indi möhkəm dayan faşist almaniyası!Hücuma keçənlər qarşılarındakı müdafiə tikililərini yerlə-yeksan etdilər. Buna baxmayaraq hitlerçilər Sovet ordusunun birinci həmləsinə davam gətirdi, alaylarımız cəmi yeddi-on kilometr irəliləyə bildilər. Böyük itkilər oldu. Lakin sonralar bu hücumlar günü-gündən güclənməyə başladı. Bu həmlələr 1945-ci ilin aprelində daha da gücləndi.

Güclü müdafiə olunan İnsterburq xəttindən sonra qəzetlərdə Ali Baş Komandanın yeni əmri çap olundu: "Bu gün yanvarın 22-də 3-cü Belorusiya cəbhəsinin ordusu Şərqi Prussiyanın Keniqsberq yolu üzərində yerləşən ən vacib müdafiə rayonu və əsas əlaqə yolları qovşağı yerləşən İnsterburq şəhərini ələ keçirib..."Bu vaxtadək Məmmədov heç bir şəhərin belə iri tonqal tək yandığını görməmişdi. Sonra əmr, əmr ardınca çıxıb bizim ordunun qələbələri haqqında məlumatlar verildi. Və nəhayət qələbəmiz də gəldi. Prussiyanın ən böyük şəhəri olan Keniqsberq aprelin 2-də alındı. Keniqsberq (indiki Kaliningrad) alındıqdan sonra bizim 169-cu qırmızı bayraqlı Roqaçov diviziyasını 3-cü Belorus cəbhəsinin sərəncamına verdilər". Bu parçaları oxuduqca yaddaşımızdan İkinci Cahan savaşının dəhşətli mənzərələri keçir. Faşizmin ölüm düşərgələri, yerlə yeksan edilmiş şəhərlər, kəndlər... bütün bunlar tarixin necə dəhşətli səhifələri olduğundan xəbər verir. Eyni ilə Xocalıda olduğu kimi Xocalı faciəsinin cəlladları Çökəriyan, Sarkisyan, bu dəhşətli cinayətin ideoloqu Lori Balayan bu gün utanmadan bəşəri cinayətlərindən xəcalət çəkmədən iddialarını davam etdirirlər. Onlar unudurlar ki, alman faşistlərinin Nürnberq mühakiməsi bir də təkrar oluna bilər məhz erməni faşistlərinin üzərində. Hələ ki, savaş avropa çöllərində davam edir, Berlinə doğru irəliləyir. Yazının sonuna doğru daha təsirli məqamlarla da rastlaşırıq. Və bu məqamların da üzərindən sükutla keçə bilmirik: "Bizim diviziyamız Oder çayının Şərq sahilindən keçib çətin vuruşmalarda qərb sahilində Frankfurt na Odere şəhərini böyük itkilər verərək aldıq. Bu döyüşlərdə mənim taqımımdan Astara rayonundan olan Bağırov familyalı sanitarımı itirdim. Diviziyamız faşizmin mərkəzi olan Berlin şəhərinə doğru ağır itkilərlə irəliləyirdi. Nəhayət, mayın 2-də bizim diviziyamız Berlinin alınmasında iştirak etdi. Berlini alan zaman ac qalmış yüz minlərlə şəhər camaatı evlərdən küçələrə çıxıb bizi qarşılayıb bizdən çörək istəyirdilər və xorla qışqırırdılar: " Xleba, Xleba..." Baxmayaraq ki, düşmən idik, lakin bizim çörəyimiz olduğundan onların üstünə çörək buxankası, ət tuşonkası tullayırdıq. Onların əksəriyyəti yaşlı kişilər və qadınlar idi. Hər buxankanı və tuşonkanı onların üzərinə tullayanda uşaq kimi tulanan qida üzərinə yerə sərilirdilər. Burada mənim yadıma mərhum və istedadlı böyük şairimiz Səməd Vurğunun "Rot-front" şeiri düşdü". "Pobeda i pamyat" kitabı ilə Ş.Cəfərov və A.Qritçenko sözün həqiqi mənasında uğurlu bir tarix əsəri yaradıblar. Müəlliflərin birliyi, müəyyən istinadda birləşmələri azərbaycanlı əsgərin əbədi abidəsini yaratmağa imkan verib. Biz bu kitabda çoxlu azərbaycanlı qəhrəmanlarla görüşdük. Onların tale yollarını izlədik. Gördüyümüz, inandığımız bir həqiqət oldu. Heç nə unudulmur, heç nə yaddan çıxmır...

Ş.Cəfərovun və A.Qritçenkonun birgə ərsəyə gətirdikləri dəyərli ədəbi abidə ilə söhbətimiz beləcə başa çatır. Ancaq hələ nə qədər haqqında danışacağımız qəhrəmanlar var...

*Ceyhun ZALLI*

09.03.2021